№ 08 (1003) 22-28 fevral 2018-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır


# Bu 20 il uğur, nailiyyətlər, inkişaf, transformasiya və regional əməkdaşlıq illəri olub




Bunu **Azərbaycan Prezidenti İlham Əliyev f**evralın 15-də Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısında deyib.

Tədbirdə, həmçinin Cənub Qaz Dəhlizinin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç iştirak ediblər.

**Dövlət başçısı İlham Əliyev demişdir:**

- Bu gün mən, həmçinin yüksək səviyyəli nümayəndələri - burada bizimlə birlikdə olan ABŞ və Birləşmiş Krallıq hökumətlərinə təkcə "Cənub Qaz Dəhlizi" layihəsinə deyil, 1990-cı illərdə Azərbaycanın təşəbbüskarı olduğu enerji təhlükəsizliyi ilə bağlı digər layihələrə verdiyi davamlı dəstəyə görə minnətdarlığımı ifadə etmək istərdim. Xüsusilə, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz layihələri ABŞ və Birləşmiş Krallıq hökumətləri tərəfindən güclü şəkildə dəstəklənib. Bu dəstək davam edir və onu göstərir ki, bu ölkələrlə yaxın tərəfdaşlığımız, əlaqələrimiz bizim hamımıza öz məqsədlərimizə çatmağa kömək edir. Əlbəttə ki, mən Cənub Qaz Dəhlizinə üzv olan ölkələrdən – Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliyadan olan tərəfdaşlarımızı, yüksək səviyyəli hökumət rəsmilərini, həmçinin tərəfdaşlarımızı, böyük komandanın gələcək üzvlərini salamlamaq istərdim. Mən artıq onları böyük komandanın üzvləri hesab edə bilərəm, çünki biz artıq Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro ilə anlaşma memorandumları imzalamışıq. Şadam ki, bugünkü toplantıda bizə dost ölkələr olan Rumıniya və Türkmənistandan nümayəndələr ilk dəfə olaraq iştirak edirlər. Onların bu toplantıda iştirakı, həmçinin bizim layihəmizə böyük əhəmiyyət verdiklərini nümayiş etdirir.

**Sözsüz ki, "Şahdəniz", TANAP və TAP-a üzv olan şirkətlərin və maliyyə institutlarının güclü əzmi olmadan layihənin icrası mümkün olmazdı.**

2015-ci ildə Azərbaycan Cənub Qaz Dəhlizi Məşvərət Şurasının yaradılması təşəbbüsü ilə çıxış etdi, çünki biz səylərimizi əlaqələndirməyə böyük ehtiyacın olduğunu aydın başa düşürdük. Əvvəlki illərdə Azərbaycan qonşu ölkələr olan Gürcüstan və Türkiyə ilə birlikdə mühüm enerji layihələri həyata keçirib. Lakin bu dəfə daha çox ölkə və şirkət cəlb olunmuşdu, ona görə də bizim əlaqələndirməyə, maksimum səmərəliliyə ehtiyacımız var idi. Mən çox şadam ki, Avropa Komissiyası bu təşəbbüsü dərhal dəstəklədi və dördüncü toplantı Avropa Komissiyası və Azərbaycan tərəfindən təşkil olunub.

Dövlət başçısı layihənin həyata keçirilməsinə verdiyi böyük töhfəyə görə bir daha cənab Şefçoviçə xüsusi minnətdarlığını bildirmiş, demişdir:

Biz artıq dördüncü dəfədir görüşürük. Bu əməkdaşlıq formatı artıq səmərəli olduğunu və çox yaxşı nəticələrə yol açacağını sübut edib. "Cənub Qaz Dəhlizi" layihəsi Azərbaycanın indiyədək çox uğurlu olan və Azərbaycana öz iqtisadiyyatını şaxələndirməyə kömək edən enerji strategiyasının əsas elementlərindən biridir. Biz enerji ehtiyatlarından istifadə edərək qeyri-neft sektoru, insan kapitalı və infrastruktura investisiya yatırmışıq, bununla da iqtisadiyyatımızın uzunmüddətli davamlı inkişafını təmin etmişik. Sözsüz ki, bizim əvvəlki illərdə Azərbaycanda həyata keçirdiyimiz layihələr Cənub Qaz Dəhlizinin reallaşdırılması üçün güclü bünövrə yaradıb. Bizim enerji strategiyamız müstəqilliyimizin bərpasından bir qədər sonra başlanıb və artıq 3 il sonra - 1994-cü ildə Azərbaycan BP-nin rəhbərliyi ilə dünyanın aparıcı neft şirkətləri konsorsiumu ilə müqavilə imzaladı və layihənin və investisiyaların həcmini nəzərə alaraq bu müqavilə dərhal "Əsrin müqaviləsi" adını aldı. Ötən ilin fevralında Bakıda sonuncu görüşümüzdən sonra keçən dövr ərzində biz eyni yataqla bağlı "Əsrin müqaviləsi"nin uzadılmasına dair yeni müqavilə imzaladıq. Hazırda layihənin müddəti 2050-ci ilədək uzadılıb. Qarşıdakı onilliklər ərzində biz dünyanın ən böyük neft yataqlarından biri olan "Azəri-Çiraq-Günəşli"də sabit və davamlı inkişafdan faydalanacağıq.

1994-cü il faktiki olaraq bizim tariximizdə, Azərbaycanda və dünyada neftin inkişafı tarixində dönüş nöqtəsi oldu.

2006-cı ildə Xəzər dənizi ilə Aralıq dənizini birləşdirən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin uğurlu açılışı oldu. Hazırda Bakı-Tbilisi-Ceyhan neft kəməri təkcə Azərbaycandan deyil, Xəzər dənizinin o biri tərəfində olan - Xəzərin şərq sahillərindəki yataqlardan neft nəql etməklə artıq Azərbaycanı tranzit ölkəyə, tranzitdə etibarlı tərəfdaşa çevirir.

2007-ci il də bizim tariximizdə mühüm il olub. Çünki Azərbaycan ilk dəfə qaz ixracatçısı oldu. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin açılışından sonra bizim qazımız Gürcüstan və Türkiyə bazarlarına ixrac olunmağa başladı və bu, eyni zamanda, "Şahdəniz" yatağının işlənilməsinin ikinci mərhələsi və "Cənub Qaz Dəhlizi" layihəsi üçün bünövrə yaratdı. Əlbəttə ki, bizim qazımızı Türkiyə və Avropaya ixrac etmək üçün diametri daha böyük olan kəmərə ehtiyacımız var idi və 2012-ci ildə İstanbulda Azərbaycan və Türkiyə Trans-Anadolu – TANAP kəmərinin tikintisi üzrə tarixi sənəd imzaladı. Düşünürəm ki, bu tarix regional inkişaf, əməkdaşlıq bizim ölkələrimiz üçün iqtisadi faydalara güclü təsir göstərəcək. Çünki bu da müasir tarixdə dönüş nöqtəsi oldu. **TANAP Cənub Qaz Dəhlizinin fundamental elementlərindən biridir və 2012-ci il faktiki olaraq, "Şahdəniz-2"-yə əsas investisiyalara qapı açdı. Çünki bundan sonra - 2013-cü ildə "Şahdəniz-2"-yə investisiya yatırmaqla bağlı qərar qəbul olundu.** TANAP olmadan bu, mümkün olmazdı. 2013-cü il Trans-Adriatik kəmərinin TANAP layihəsinin davamı kimi seçildiyi il oldu. Beləliklə, bu, görülən işlərin qısa tarixçəsidir. Əlbəttə, bu tarixçə onu göstərir ki, biz 20 ildən çoxdur Cənub Qaz Dəhlizinin həyata keçirilməsi istiqamətində irəliləyirik. Bu 20 il uğur, nailiyyətlər, inkişaf, transformasiya və regional əməkdaşlıq illəri olub.

Bu gün bizim artıq təkcə Azərbaycan, Gürcüstan, Türkiyə kimi üç ənənəvi müttəfiqi deyil, daha çox ölkəni əhatə edən güclü regional əməkdaşlıq formatımız var. Ötən görüşümüzdən sonra keçən dövr ərzində Cənub Qaz Dəhlizinin həyata keçirilməsində əhəmiyyətli irəliləyiş əldə olunub. Mən sizin və Azərbaycan xalqının diqqətinə bəzi rəqəmləri çatdıracağam. **Biz Cənub Qaz Dəhlizinin 4 elementinin hamısı ilə bağlı yaxşı irəliləyişə nail olmuşuq. "Şahdəniz-2" yatağı üzrə işlərin 99 faizdən çoxunu tamamlamışıq. Müqayisə üçün, bir il əvvəl bu rəqəm 90 faiz olub. Cənubi Qafqaz Boru Kəməri ilə bağlı işlərin təxminən 95 faizi tamamlanıb, bir il əvvəl bu rəqəm 90 faiz olub. TANAP-ın icrası 95 faizə yaxınlaşır, bir il əvvəl bu, 70 faizə yaxın olub. TAP-ın icrası bir il əvvəlki 34 faizlə müqayisədə 70 faizə yaxın, ola bilsin ki, 66-67 faiz tamamlanıb.** Beləliklə, bu, həqiqətən də, çox mühüm inkişafdır. Bu, onu göstərir ki, 2017-ci il bəlkə də layihənin icrasında həlledici il olub və hazırda biz yekunlaşmağa çox yaxınıq. Mən, həmçinin bildirmək istərdim ki, 20 il bundan əvvəl Azərbaycan, Gürcüstan və Türkiyə arasında yaradılmış regional əməkdaşlıq həqiqətən də regionumuzda və Avropada enerji sahəsində inkişafda mühüm rol oynayıb. Çünki bu regional əməkdaşlıq təkcə nəhəng, genişmiqyaslı enerji layihələrinin həyata keçirilməsinə yol açmayıb, həm də regionumuzda sabitlik, proqnozlaşdırılma imkanı və çox səmimi əməkdaşlıq yaradıb. Eyni zamanda, bu, bizə diqqəti digər nəqliyyat layihələrinə cəmləşdirməyə imkan verib. 2017-ci ilin fevralında sonuncu görüşümüzdən sonra keçən dövrdə regionda başqa mühüm bir hadisə baş verdi. Ötən il oktyabrın sonunda Bakıda biz təkcə üç ölkə arasında deyil, həm də Asiya və Avropa arasında yeni dəmir yolu əlaqəsi olan yeni layihənin - Bakı-Tbilisi-Qarsın açılışını etdik. Bu, artıq Asiyadan Avropaya ən qısa yoldur, yüklərin daşınmasına sərf olunan zamanı iki dəfədən çox azaldır və artıq şirkətlərə xidmətlər göstərir. Əminəm ki, onlar bu layihəni ciddi şəkildə əsas prioritetlərindən biri hesab edəcəklər. Bu gün artıq yüklərin artması onu göstərir ki, Bakı-Tbilisi-Qars yeni İpək Yolu layihəsinin çox mühüm elementi olacaq. Sözsüz ki, burada, Qafqazda, Gürcüstan, Türkiyə və Azərbaycan arasında güclü regional əməkdaşlıq olmasaydı, neft-qaz layihələri həyata keçirilməsəydi, Bakı-Tbilisi-Qars bəlkə də reallıq üçün deyil, sadəcə, tarix üçün bir layihə olacaqdı. Bu, bizim əldə etdiyimiz real nəticədir. Bu gün biz artıq geniş komanda ilə bu masa arxasında əyləşərkən görürük ki, Cənub Qaz Dəhlizinin üzvü olan ölkələr arasında eyni əməkdaşlığı yarada bilərik. Bu, artıq baş verir və tərəfdaş ölkələrdən yüksək səviyyəli nümayəndə heyətlərinin iştirakı həqiqətən də bunu nümayiş etdirir. Hələ ki, "Şahdəniz" Cənub Qaz Dəhlizi üçün yeganə resurs mənbəyidir. Lakin düşünürəm və əminəm ki, gələcəkdə biz Azərbaycanda əlavə həcmdə resurslara malik olacağıq. Çünki bu gün biz beynəlxalq tərəfdaşlarımızla fəal şəkildə yeni layihələr, Xəzər dənizinin Azərbaycan sektorundakı yeni qaz yataqları üzərində işləyirik. Xüsusilə tezliklə, ola bilsin ki, bir neçə ilə, bəlkə də bundan az müddətdə hasilata başlanacaq "Abşeron" yatağı, çox böyük qaz ehtiyatı olan "Ümid" və "Babək" yataqları ilə bağlı Azərbaycan xarici şirkətlərlə fəal danışıqlar aparır.

**Tezliklə beynəlxalq əməkdaşlığa cəlb olunacağına ümid bəslədiyimiz başqa bir yataq "Qarabağ" adlanır. Həmçinin, böyük qaz potensialı olan iki yataq - "Dan ulduzu" və "Əşrəfi".** Beləliklə, Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatları "Şahdəniz" yatağından iki dəfədən artıq çoxdur - 2,6 trilyon kubmetr qaza bərabərdir və əminəm ki, daha çox olacaq. Çünki bizim təcrübəmiz onu göstərir ki, ilkin olaraq gözlənilən ehtiyatlar əvvəlkindən xeyli çox olur. Bu gün Azərbaycan nefti bəzi Avropa ölkələrinin neft istehlakının üçdəbiri və ya daha çox, hətta 40 faizini təşkil edir. Azərbaycan öz




qaz ehtiyatları ilə Avropa bazarına daxil olmağa hazırdır.

Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir. Biz milli təhlükəsizlikdən danışarkən əlbəttə ki, hazırda enerji təhlükəsizliyi ən vacib elementlərdən biridir. Cənub Qaz Dəhlizi enerji şaxələndirilməsi layihəsidir, bizdə bu, marşrutların və mənbələrin şaxələndirilməsidir. Bu, əsl şaxələndirmədir. Çünki təkcə marşrutların şaxələndirilməsi bizimkindən bir qədər fərqlidir. Cənub Qaz Dəhlizi enerji sahəsində əməkdaşlıq layihəsidir və əməkdaşlığın necə olmalı olduğunu göstərir. Əməkdaşlıq yalnız o zaman mümkündür ki, bütün tərəflər ondan faydalansın. Bu səbəbdən, başlanğıcda bizim əsas məqsədimiz istehsalçılar, tranzit ölkə və istehlakçılar arasında yaxşı balansın tapılmasıdır. Cənub Qaz Dəhlizi marşrut boyunca yerləşən və Cənub Qaz Dəhlizinin üzvü olan ölkələrin bir çox hissələrinin qazlaşdırılmasına gətirib çıxaracaq. Bütün bunlar inkişaf, sabitlik, proqnozlaşdırılma imkanı deməkdir və əməkdaşlığa yol açır. Çünki bu gün Cənub Qaz Dəhlizinin üzvü olan ölkələr Azərbaycanın çox yaxın tərəfdaşlarıdır.

Əlbəttə ki, əvvəlki layihələrlə yanaşı, “Cənub Qaz Dəhlizi” layihəsi ölkəmizə yeni faydalar verir. Azərbaycan iqtisadiyyatı şaxələndirmək, insan kapitalına investisiya yatırmaq, iqtisadiyyatı tamamilə dəyişmək üçün öz enerji ehtiyatlarından səmərəli şəkildə istifadə edib. Hazırda ümumi daxili məhsulun mütləq əksəriyyəti özəl sektorun payına düşür. Son 15 ildə iqtisadiyyatımız 3 dəfədən çox, ümumi daxili məhsul 3,2 dəfə artıb. Biz işsizlik və yoxsulluğu azaltmaq üçün enerji ehtiyatlarından düzgün şəkildə istifadə etməyə müvəffəq olmuşuq. Son 15 ildə əhalimizin 1,5 milyon nəfər artmasına baxmayaraq, işsizlik səviyyəsi çox aşağı – 5 faizdir. Yoxsulluq səviyyəsi 5,4 faizdir, savadlılıq səviyyəsi 100 faizə yaxındır.

Biz iqtisadiyyatı şaxələndirmək üçün insan kapitalına investisiya yatırmışıq, iş yerləri açmışıq, müasir infrastruktur layihələri yaratmışıq. 2018-ci il yanvar ayının nəticələri göstərir ki, iqtisadiyyatımız əsasən qeyri-enerji sektorunda inkişaf edir. Burada iqtisadi artım 4 faizə yaxın olub. Yanvarda sənayemizin qeyri-enerji sektorunda iqtisadi artım 8,7 faiz olub. Azərbaycanın valyuta ehtiyatları ümumi daxili məhsula bərabərdir. Düşünürəm ki, iqtisadiyyatın şaxələndirilməsinin ən yaxşı göstəricisi Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsidir. Son qiymətləndirmə göstərir ki, Azərbaycan rəqabət qabiliyyətinə görə dünyada 35-ci yerdədir. İnkişaf etməkdə olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə Azərbaycan 3-cü yerdədir. Bizdən əvvəl yalnız 30 inkişaf etmiş ölkə və 2 inkişaf etməkdə olan ölkə var. Bu, o deməkdir ki, biz rəqabətlilik və inkişafa görə 33-cü və 35-ci yerdəyik. Bu, bizim enerji amili ilə dəstəklənən siyasətimizin göstəricisi və siyasətimizin nəticəsidir. Sözsüz ki, biz Azərbaycanda yeni enerji inkişafı ilə bağlı tərəfdaşlarımızla fəal şəkildə işləməyə davam edəcəyik.

x x x

Sonra Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviç çıxış etmişlər.

# Maroş Şefçoviç: Azərbaycan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir



Bu barədə Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç deyib.

"Bu bizim Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində Bakıda dördüncü görüşümüzdür. İclasda ötən illər ərzində görülən işləri müzakirə etdik. Bu il də çox əlamətdar olacaq. Çünki ilk qaz Türkiyəyə çatdırılacaq. 2020-ci ildə isə Azərbaycan qazı Avropaya nəql olunacaq", - deyə Maroş Şefçoviç bildirib.

Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti qeyd edib ki, iclasda layihənin iştirakçısı olan ölkələrin nümayəndə heyətləri ilə birgə qarşıda duran vəzifələr barədə danışıqlar aparılıb:

"Azərbaycan bizim üçün strateji diversifikasiyada, Avropaya qaz hasilatında vacib tərəfdaşdır. Azərbaycan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir".

# Saltuk Düzyol: İyuldan TANAP-la Türkiyəyə kommersiya məqsədilə qazın verilməsi nəzərdə tutulub

İyulun əvvəlindən etibarən Trans-Anadolu (TANAP) boru kəməri ilə Türkiyəyə kommersiya məqsədilə ilk qaz veriləcək.

Bu barədə müsahibəsində TANAP-ın baş direktoru Saltuk Düzyol deyib. S.Düzyol bildirib ki, TANAP Cənub Qaz Dəhlizinin mühüm tərkib hissələrindən biridir. Bu boru kəmərinin ötürücülük gücü gələcəkdə daha da artırılacaq: "TANAP boru kəmərinin 1340 kilometrlik hissəsi artıq tamamlanıb və qaz Əskişəhərə çatdırılıb. Bu hissədə fiber-optik kabel də çəkilib. Bu ilin iyulunda kommersiya məqsədilə ilk qazın Türkiyəyə verilməsi nəzərdə tutulur. Layihənin ilk fazası üzrə işlər 99 faizi icra edilib, ikinci fazada isə 80 faiz irəliləyişə nail olunub. Boru kəmərinin dəniz hissəsində də işlər tamamlanıb, borular suyun altına döşənib".

"Hazırda layihənin icrası baxımından çox yaxşı bir mərhələdəyik. Boru kəmərinin ölçmə stansiyalarının inşası tamamlanıb. Sistemə təbii qazın alınmasına başlanılıb", - deyə TANAP-ın baş direktoru qeyd edib.



# Luca Schieppati: TAP Avropanın enerji təhlükəsizliyinin təminatına mühüm töhfə verəcək



Bu sözləri TAP-ın icraçı direktoru Luca Schieppati deyib.

"TAP strateji əhəmiyyətli bir layihədir. Bu layihə Avropanın enerji təhlükəsizliyinin təminatına mühüm töhfə verir. Eyni zamanda, karbohidrogen resurslara olan tələbatı ödəyəcək. Dövlətlərin dəstəyi ilə 2020-ci ildə Azərbaycan təbii qazı Avropaya nəql olunacaq. Biz "Cənub Qaz Dəhlizi" layihəsinin uğurlu olması üçün çalışırıq. Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü iclası qarşıda görüləcək işlər barədə fikir mübadiləsi aparmaq baxımından əhəmiyyətlidir.

Müxtəlif dövlətlərin nümayəndə heyətləri ilə birgə çox məhsuldar müzakirələr apardıq", - deyə TAP-ın icraçı direktoru qeyd edib.

# Qəri Counz: "Şahdəniz-2"dən ilk qazın hasilatına dair işlərin 99 faizi tamamlanıb

"Şahdəniz-2" yatağından ilk qazın hasil olunması üzrə işlərin 99 faizi yekunlaşıb.

Bu barədə müsahibəsində BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz deyib.

O bildirib ki, BP Cənub Qaz Dəhlizinin tərkibinə daxil olan 4 layihədən 2-sinin - “Şahdəniz-2” və Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi layihələrinin operatorudur və bu layihələr üzrə işlər qrafikə uyğun gedir. "Şahdəniz-2" yatağından ilk qazın hasil olunması üzrə işlərin 99 faizi artıq tamamlanıb.

Yataqdan ilk qaz hasilatı bu ilə planlaşdırılır.

Layihənin icrası zamanı təhlükəsizliyin təmin olunması, ətraf mühitin qorunması səyləri təqdirəlayiqdir.



## "Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ HÖKUMƏTİ

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Azərbaycan Xalq Cümhuriyyətinin ali icra hakimiyyəti orqanı idi. Parlament qarşısında məsuliyyət daşıyırdı. Azərbaycan Milli Şurasının fəaliyyət göstərmədiyi dövrdə qanunvericilik fəaliyyətini də yerinə yetirmişdir. Cümhuriyyət hökuməti son dərəcə ağır tarixi şəraitdə formalaşmışdı. Zaqafqaziya seymi buraxıldıqdan sonra 1918-ci il mayın 27-də seymin Müsəlman fraksiyası özünü Azərbaycan Milli Şurası elan etdi. Mayın 28-də Zaqafqaziya seyminin fəaliyyət göstərmiş olduğu Tiflisdə - keçmiş Qafqaz canişininin iqamətgahında özünün ilk iclasına toplanan Azərbaycan Milli Şurası uzun və hərtərəfli müzakirələrdən sonra Azərbaycanın müstəqilliyi haqqında *İstiqlal bəyannaməsini* qəbul etdi. Bəyannamənin 6-cı maddəsində göstərilirdi ki, “Məclisi-Məbusan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arayi-ümumiyyə ilə intixab olunmuş Şurayi-Milli və Şurayi-Milliyəyə qarşı məsul hökuməti-müvəqqəti durur».

Milli Şura Azərbaycan Xalq Cümhuriyyətinin ***birinci hökumət kabinəsini*** təşkil etməyi Milli Şuranın üzvü, bitərəf Fətəli xan Xoyskiyə tapşırdı. Bir saatlıq fasilədən sonra yığılan Milli Şuranın iclasında Fətəli xan Xoyskinin başçılığı ilə Cümhuriyyətin ilk hökuməti təsdiq edildi. İlk hökumətdə vəzifələr aşağıdakı kimi bölüşdürülmüşdü: ***Fətəli xan Xoyski*** - Nazirlər Şurasının sədri və daxili işlər naziri; ***Xosrov Paşa bəy Sultanov*** - hərbi nazir; ***Məmməd Həsən Hacınski*** - xarici işlər naziri; ***Nəsib bəy Yusifbəyli*** - maliyyə və xalq maarifi naziri; ***Xəlil bəy Xasməmmədov*** - ədliyyə naziri; ***Məmməd Yusif Cəfərov*** - ticarət və sənaye naziri; ***Əkbər ağa Şeyxülislamov*** - əkinçilik və əmək naziri; ***Xudadat bəy Məlik-Aslanov*** - yollar, poçt və teleqraf naziri; ***Camo bəy Hacınski*** - dövlət nəzarəti naziri.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il mayın 30-da radioqram vasitəsilə Azərbaycanın öz istiqlaliyyətini elan etməsi barədə dünyanın əsas siyasi mərkəzlərinə - London, Paris, Vaşinqton, İstanbul, Berlin, Madrid, Tehran, Moskva, Roma, Vyana, Buxarest, Sofiya, Tokio, Haaqa, Kopenhagen, Kiyev, Kristianiya (Oslo) və Stokholma rəsmi bəyanatlar göndərdi. Həmin radioqramda yeni yaradılmış hökumətin müvəqqəti olaraq Yelizavetpolda (Gəncə) yerləşdiyi bildirilirdi.

Tiflisdə yeni müstəqil dövlətin yaradılması ilə əlaqədar ən ümdə təşkilati tədbirləri həyata keçirdikdən və bu haqda bütün dünyaya məlumat verdikdən sonra Azərbaycan Milli Şurası və hökuməti öz nüfuz dairəsini bütün Azərbaycan ərazisində yaymaq məqsədilə 1918-ci il iyunun 16-da Gəncəyə köçdü. Həmin dövrdə Gəncədə real hakimiyyət hələ may ayının axırlarında 300 nəfər hərbi təlimatçı ilə Gəncəyə gəlmiş Türkiyənin *Qafqaz İslam Ordusunun* komandanı Nuru paşanın əlində idi. O, tezliklə Gəncədə hərc-mərcliyə son qoya bilmiş, şəhərdə qayda-qanun yaratmışdı. Azərbaycan Milli Şurası və hökumətinin həyata keçirmək istədiyi tədbirlərin «həddindən çox demokratik» istiqamətindən narazı qalan Azərbaycan burjuaziyası və mülkədarlarının müəyyən dairələrinin təsirilə Nuru paşa Azərbaycan Milli Şurası və hökumətini şübhə ilə qarşıladı. İyunun 16-da Gəncəyə gələn Azərbaycan Milli Şurasının iyunun 17-də Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə iki iclası keçirildi.



Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvləri

Birinci qapalı iclas iyunun 17-də saat 12-də şəhər idarəsinin binasında toplandı. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin sədri Fətəli xan Xoyski söz alaraq bildirdi ki, Məhəmməd Əmin Rəsulzadə və Məmməd Həsən Hacınski ilə birlikdə onlar Qafqazdakı türk ordusunun komandanı Nuru paşanın yanında olmuş və Tiflisdə yaradılmış Milli Şura və Azərbaycan hökuməti haqqında ona məlumat vermişlər. Nuru paşa cavabında bildirib ki, bir əsgər kimi o, mülki işlərlə kifayət qədər tanış deyil, ona görə də bu barədə onun mülki işlər üzrə müşaviri Əhməd bəy Ağaoğluna müraciət etsinlər. Əhməd bəy Ağaoğlu ilə görüşlərindən bəhs edən Fətəli xan Xoyski məlumat verdi ki, danışıq zamanı Əhməd bəy Ağaoğlu Türkiyə hökumətinin və onun Gəncədəki nümayəndəliyinin Azərbaycanın daxili işlərinə qarışmayacağını bildirdi, lakin Milli Şuranın yeni hökumət yaradaraq özünü buraxmasını tələb etdi. İyunun 17-də saat 2-də Milli Şuranın çox gərgin şəraitdə keçən ikinci iclasında Fətəli xan Xoyski Tiflisdə təşkil etdiyi hökumətin fəaliyyəti barədə qısaca məlumat verərək, Şura üzvlərindən onun hökumətinin istefasını qəbul etməyi xahiş etdi. Uzun və gərgin müzakirədən sonra iclas Azərbaycan Milli Şurasının buraxılması, bütün qanunverici və icraedici hakimiyyətin yeni yaradılacaq Müvəqqəti hökumətə verilməsi haqqında iki mühüm qətnamə qəbul etdi.

Milli Şuranın buraxılması haqqındakı birinci sənəddə göstərilirdi ki, həm daxili, həm də xarici siyasət sahəsində Azərbaycanda yaranmış ağır vəziyyəti nəzərə alaraq, Azərbaycan Milli Şurası bütün hakimiyyəti Fətəli xan Xoyskinin sədrliyi ilə təşkil olunmuş Müvəqqəti hökumətə həvalə edir və ona tapşırır ki, öz hakimiyyətini tezliklə çağırılacaq Müəssislər Məclisindən başqa kimsəyə güzəştə getməsin.

Müvəqqəti hökumətin hüquq və vəzifələri haqqındakı ikinci sənəddə qeyd olunurdu ki, Azərbaycan hökumətinə Azərbaycanın dövlət istiqlaliyyətini və mövcud siyasi azadlıqları ləğv etmək, aqrar və digər bu kimi mühüm inqilabi əhəmiyyətli qanunları dəyişdirmək səlahiyyəti verilmir. Azərbaycan hökuməti altı aydan gec olmayaraq Müəssislər Məclisini çağırmalıdır. Hökumət qalan məsələlərdə bütün səlahiyyətlərindən istifadə etməkdə sərbəst idi. Azərbaycan Milli Şurası iyunun 17-də Fətəli xan Xoyskinin sədrliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin ***ikinci hökumət kabinəsinin*** tərkibini təsdiq etdi. İkinci hökumətə ***Fətəli xan Xoyskidən*** başqa, ***Məmməd Həsən Hacınski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Xəlil bəy Xasməmmədov, Xosrov Paşa bəy Sultanov, Xudadat bəy Rəfibəyli, Xudadat bəy Məlik-Aslanov, Ağa Aşurov, Əbdüləli bəy Əmircanov*** və ***Musa bəy Rəfiyev*** daxil oldular. İclasın sonunda çıxış edən Fətəli xan Xoyski bildirdi ki, onun yaratdığı yeni hökumətin başlıca vəzifəsi Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda mübarizə olacaqdır.

İyunun 19-da Fətəli xan Xoyskinin təşkil etdiyi ikinci hökumət üzvləri arasında vəzifələr aşağıdakı kimi bölüşdürüldü: ***Fətəli xan Xoyski*** - Nazirlər Şurasının sədri və ədliyyə naziri; ***Məmməd Həsən Hacınski*** - xarici işlər naziri (eyni zamanda, müvəqqəti olaraq dövlət müfəttişi); ***Behbud xan Cavanşir*** - daxili işlər naziri; ***Xudadat bəy Məlik-Aslanov*** - yollar naziri (eyni zamanda, müvəqqəti olaraq poçt və teleqraf naziri); ***Əbdüləli bəy Əmircanov*** - maliyyə naziri; ***Xosrov Paşa bəy Sultanov*** - əkinçilik naziri; ***Nəsib bəy Yusifbəyli*** - xalq maarifi və dini etiqad naziri; ***Ağa Aşurov*** - ticarət və sənaye naziri (eyni zamanda, müvəqqəti olaraq ərzaq naziri); ***Xudadat bəy Rəfibəyli*** - səhiyyə və himayədarlıq naziri; ***Əlimərdan bəy Topçubaşov, Xəlil bəy Xasməmmədov*** və ***Musa bəy Rəfiyev*** - portfelsiz nazirlər.

Fətəli xan Xoyskinin təşkil etdiyi ikinci hökumət Gəncədə çox çətin və mürəkkəb bir şəraitdə fəaliyyətə başladı. Sonralar Azərbaycan Parlamentinin ilk iclasında Fətəli xan Xoyski demişdi: ***“Hökumətimiz öylə bir zamanda təşkil edilmişdi ki, bir kənddən o biri kəndə getmək qorxulu idi. Gecə yatanda sabaha çıxmağa ümid yox idi. Heç kəsin irzi, namusu, canı, malı əmniyyətdə deyildi... Poçt-teleqraf yox idi. Bir kağız yollamaq belə mümkün deyildi. O vaxt idi ki, maliyyatdan hökumət əlində heç bir şey yox idi. Hökumətə lazım olan idarələrin hamısı başdan-başa dağılmış, xidmətçilər qaçmışdılar. İdarələrin adı var idisə də, özü yox idi. Hərə başına beş-on adam yığıb bir hökumət, bir qanun düzəltmişdi”.***

Yaranmış çətin və mürəkkəb şəraitdə Fətəli xan Xoyski hökumət aparatının təşkili işini davam etdirdi. Nazirlər Şurası və ayrı-ayrı nazirliklərin idarə aparatı yaradıldı. İyunun 27-də Fətəli xan Xoyski hökuməti tərəfindən Azərbaycan dili dövlət dili elan olundu. Avqustun 28-də tədris müəssisələrinin milliləşdirilməsi haqqında qərar qəbul edildi. Fətəli xan Xoyski hökumətinin Gəncədə 1918-ci il iyunun 19-da qəbul etdiyi ilk qərar bütün Azərbaycanda hərbi vəziyyətin elan edilməsi oldu. Avqustun 11-də ümumi səfərbərlik elan edildi. 1894-99-cu illərdə anadan olmuş kişi cinsindən bütün müsəlman vətəndaşlar orduya çağırıldı.

**(davamı gələn sayımızda)**

# Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə Özbəkistan Ticarət və Sənaye Palatası əməkdaşlıq edəcək

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) ilə Özbəkistan Respublikasının Ticarət və Sənaye Palatası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

ASK-dan bildiriblər ki, sənədi Özbəkistan Ticarət və Sənaye Palatasının sədri Adxam İkramov və ASK-nın prezidenti Məmməd Musayev imzalayıblar. Tədbirdə Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev, “Uzstroymaterialı” Səhmdar Şirkətinin sədri Botir Zaripov, “Tashkent City” Unitar Müəssisəsinin direktoru Caxongir Artıkxocayev, “Uzkimyesanoat” Səhmdar Cəmiyyətinin sədr müavini Dmitriy Pak, Özbəkistanın investisiyalar üzrə Dövlət Komitəsinin sədr müavini Laziz Kudratov, “Uzbekneftqaz”, “Navruz International Corp”, “Middle Asia Rotoplast” şirkətlərinin nümayəndələri və azərbaycanlı sahibkarlar iştirak ediblər.

Xatırladaq ki, səfər Azərbaycan məhsullarının Özbəkistan bazarına daxil olması, sahibkarlarımızın bu ölkənin şirkətləri ilə işgüzar əlaqələr qurmaları və Özbəkistanda investisiya mühiti ilə tanış olmaları məqsədini daşıyır.

# Akademik Ziyad Səmədzadə: «Çində gördüklərim məni heyrətə saldı»

***Publika.az fevralın 20-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə ilə müsahibə təqdim etmişdir. Həmin müsahibəni oxucularımızın nəzərinə çatdırırıq.***



*Jurnalistlərin peşəkarlığı, məsuliyyəti, dəqiq informasiyanın ötürülməsi – bütün bu məsələlər çox vacibdir. Azərbaycan mediası daim inkişaf etməlidir. Əgər biz keçmiş illərə nəzər salsaq görərik ki, son illərdə Azərbaycan jurnalistikası, doğrudan da, böyük yol keçmişdir. Bu, sadəcə xoş sözlər deyil, bu, həqiqətdir. Əgər 15 il bundan əvvəlki qəzetləri vərəqləsək görərik ki, orada daha çox böhtan, təhqir, iftira mövzuları üstünlük təşkil edirdi. Bəzi hallarda bu, bu gün də vardır. Ancaq onların miqdarı xeyli azalıbdır. Ona görə məsuliyyət və peşəkarlıq, dəqiq informasiya mütləq hər bir medianın imicini göstərir.*

*İlham Əliyev*

**- Ziyad müəllim, ümumiyyətlə, son illər Azərbaycanda aqrar sektorun dayanıqlı və davamlı inkişafı üçün bir çox layihələr həyata keçirilir. Kənd əməkçilərinə dəstək məqsədilə iqtisadi mexanizmlərdən istifadə edilir. Bununla belə, hələ də həllini gözləyən problemlər var. Sizcə, bu nə ilə əlaqəlidir?**

- Azərbaycan dövlətinin kənd təsərrüfatına dəstəyi çox düzgün iqtisadi siyasətin nəticəsidir. Bu siyasət Azərbaycan kəndinin sosial-iqtisadi inkişafını daha sürətli etmək, dövlətin iqtisadi qüdrətinin artırılmasında onun rolunun bundan sonra da artmasını təmin etmək məqsədi daşıyır. Ulu öndər Heydər Əliyev Azərbaycanda çox unikal bir aqrar siyasət yeritmişdi. SSRİ dağıldıqdan sonra ölkədə ağır iqtisadi böhran hökm sürürdü, ərzaq məhsullarının istehsalı, kəndlinin torpağa bağlılığı xeyli dərəcədə azalmışdı. Bu da təbii ki, insanlara mənfi təsir göstərirdi. Ona görə də kəndlini torpağa bağlayacaq güclü və düzgün islahatların aparılması yeganə çıxış yolu idi. Məhz buna görə aparılan islahatlar sayəsində tarixdə ilk dəfə olaraq əhaliyə pulsuz torpaq paylanıldı. Aqrar sektorda görülən işlər son dərəcə sürətləndirildi və kəndlərdə həyat səviyyəsinin yüksəldilməsi üçün ciddi addımlar atıldı. Bu tədbirlərdən biri də kənd təsərrüfatına ayrılan subsidiyalardı. Biz dünya ölkələrini təhlil edirik, bütün sahələrdə müqayisələr aparırıq. Əminliklə bunu deyə bilərik ki, bu gün ölkəmizdə aparılan aqrar islahatlar dövrün ən məsuliyyətli və uğurlu istiqamətlərindən biridir. Mən Çin iqtisadiyyatı ilə yaxından tanış olmuşam. Müasir dövrdə urbanizasiya məsələləri hər yerdə qalmaqdadır. Hələ 70-ci illərdə yazdığım kitablarda mən bu məsələləri geniş şərh etmişəm. Ölkələr iqtisadi cəhətdən inkişaf etdikcə, urbanizasiya məsələləri də sürətlənir. Çin kimi nəhəng ölkədə də, ən kiçik ölkələrdə də məskunlaşma, kənddən şəhərə axın problemləri yaranır. Azərbaycan əhalisinin 7%-i Abşeronun payına düşür. Çünki burada əlverişli imkanlar mövcuddur. Son illərdə görülən işlər bütün bunları sübut edir. Regionların inkişafına dair proqram əsasında aqrar sektorun bütün sahələrində canlanma nəzərə çarpır. Amma əvvəlki illərlə müqayisədə artıq kəndlərdən şəhərlərə axın edən əhalinin sayında da ciddi fərq var: İştirak etdiyim bütün tədbirlərdə hər zaman ilk olaraq vurğuladığım bir fikir var, bizim əsas məqsədimiz kəndlərdə qaynar həyatı bərpa etməkdir. 70-ci illərdə Azərbaycan kəndlərində kifayət qədər böyük uğurlar əldə olunub. Artıq dövlət başçımız tərəfindən ölkədə ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı prioritet istiqamət kimi müəyyənləşdirilib. Məsələn, pambıqçılıq. Son illərdə pambıqçılığın inkişafında əldə olunan nailiyyətlər kifayət qədər sevindiricidir. Bu sahədə məhsuldarlığın daha da artırılması üçün gələcək hədəflər də müəyyənləşdirilib. Pambıq becərən kəndlilərin maddi maraqlarının artırılması istiqamətində də motivasiya xarakterli dəstəklər verilir, əlavə tədbirlər görülür. İxtisaslaşmaya diqqət artırılır, yanacaqlarla, gübrələrlə əlaqədar olaraq verilən subsidiyalar, heç şübhəsiz ki, kəndlinin əməksevərliyini artırır və ona maddi stimul verir. Digər ənənəvi sahələrimizdən biri tərəvəzçilikdir. Bu istiqamətdə də çoxsaylı tədbirlər görülüb, istixanalar tikilib. Bu istixanalarda becərilən məhsullarımız artıq dünya bazarına çıxır. Cənab prezidentimiz regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda çıxışı zamanı da bu barədə kifayət qədər geniş məlumat verib. Bu sahələrə çayçılıq, tütünçülük və s. əlavə etmək olar. Mən gənc yaşlarımda taxıl sahələrini, pambıq tarlalarını, çay, üzüm bağlarını gəzmişəm və Azərbaycanda bu sahənin ilkin mərhələləri haqqında arxiv sənədləri əsasında geniş yazılar yazmışam. Lakin, təəssüf ki, müstəqilliyimizin ilk illərində bir çox müəssisələr, zavodlar dağıdılırdı, minlərlə avadanlıqlar, maşın və mexanizimlər xaricə satılırdı. Bunun da nəticəsində əhalinin əksər hissəsi yoxsullaşdı, işsiz qaldı. Həmin illərdə iqtisadiyyatdan başı çıxmayan, qeyri-peşəkar şəxslərin səriştəsizliyi ucbatından kənd təsərrüfatında ağır vəziyyət yaranmışdı. Ulu öndərin hakimiyyətə qayıdışı, sistemli tədbirlər görməsi nəticəsində istehsalın sabitləşməsi, yeni iqtisadi sistemin yaradılması təmin edildi. Ölkənin iqtisadi inkişaf strategiyasının məqsəd və vəzifələri müəyyənləşdirildi. Cəmiyyətdə, insanlarda gələcək barədə düşünməyə inam yarandı. Hazırda rəhbər sahələrdə daha peşəkar mütəxəssislər çalışır. Mövcud problemlər bir-bir aradan qaldırılır. Yarana biləcək hər hansı problemləri aradan qaldırmaq üçün isə öncədən tədbirlər görülür. Bu gün ölkədə çoxsaylı quşçuluq fabrikləri, böyük hektarlara malik olan taxıl plantasiyaları var. Həmçinin, kəndlilərin işini asanlaşdırmaq məqsədilə zəruri texnika və suvarma sistemlərindən səmərəli istifadə edilir. Qeyri-neft sektorunun üstün inkişafı, regional, sosial, məşğulluq, təhsillə bağlı proqramların həyata keçirilməsi və mühüm işlərdə dövlət-özəl sektor əməkdaşlığı və s. onu göstərir ki, dövlət kənd təsərrüfatı sahələrinin inkişafına maddi, mənəvi dəstək verir.

**- «Vergilər, şəffaflıq, inkişaf» konfransında çıxışınız zamanı belə bir fikir səsləndirdiniz ki, Azərbaycanda əhalinin 35-36%-i kənd təsərrüfatı sahəsində çalışır. Biz də bu sahəni vergidən azad etmişik. İstərdim bu fikrinizi bir az izah edəsiniz.**

**- Mən çox təəssüf edirəm ki, bizim peşəkar jurnalistlərimizlə yanaşı, hələ də peşəkarlıqdan uzaq, səriştəsiz, elementar iqtisadi terminləri bilməyən qələm sahibləri özlərini "jurnalist" adlandırırlar. Hiss olunur ki, onlar problemin nə olduğunu dərk etmədən, səsləndirilən fikirlərin hansı istiqamətdə olduğunu bilmədən fikirləri təhrif edirlər. Son 15 ildə yazdığım əsərlərdə, kitablarda, iştirak etdiyim çoxsaylı beynəlxalq konfranslarda birmənalı şəkildə bəyan etmişəm ki, Azərbaycan dünyada nadir ölkələrdən sayılır ki, artıq 21 ildir düşünülmüş, çox səmərəli iqtisadi siyasət aparır. Azərbaycan dövlətinin apardığı iqtisadi siyasətin tərkib hissələrindən biri də məhz aqrar sektorda aparılan işlərdir. Siz bilirsiz ki, Azərbaycan dövləti kənd əməkçilərini torpaq vergisi istisna olmaqla digər bütün vergilərdən azad edib. Bu, kifayət qədər böyük və ciddi məsələ olub, dövlətin aqrar sektora dəstəyinin bariz nümunələrindən biridir. Bu layihəni isə Milli Məclisdə ilk dəfə mən təqdim etmişəm. Ona görə də bu istiqamətdə söylədiyim fikirlərin təhrif edilməsi məndə çox böyük məyusluq doğurur. Azərbaycan**



**iqtisadiyyatının inkişafında çox mühüm rol oynayan aqrar sektorun inkişafı ilə bağlı görülən tədbirlərə bu qədər məsuliyyətsiz yanaşmaq düzgün deyil. Azərbaycanda fermerlərə dövlət tərəfindən subsidiyalar və güzəştli kreditlər verilir, irimiqyaslı infrastruktur layihələri həyata keçirilir. Bütün bunlar da kənd təsərrüfatının sürətli inkişafını təmin etməyə və Azərbaycanın ərzaq təhlükəsizliyinin yaxşılaşdırılmasına yönəlib. Bu tədbirlərdən biri də uzun illər tətbiq edilən və bundan sonra da tətbiq ediləcək kənd təsərrüfatının vergilərdən (torpaq vergisi istisna olmaqla) azad edilməsidir. Mən bu fikirləri ilk dəfə səsləndirmirəm, amma çox təəssüf olsun ki, fikirlərimi bilərəkdən təhrif ediblər. Həmin şəxslərə deyirəm ki, siz düz yolda deyilsiniz, insanları çaşdırmağa çalışmayın, dövlətimizin aqrar siyasəti, vətən torpağımızın çiçəklənməsi üçün gördüyümüz işlər ildən-ilə daha böyük uğurlarla nəticələnəcəkdir.**

**- Ziyad müəllim, cari ilin büdcəsi, onun əsas parametrləri, daxili investisiyaların artımı, onlardan istifadə priorotetləri barədə nə deyə bilərisiniz?**

- Artıq bir neçə ildir ki, qlobal risklərdən, onun ölkənin milli iqtisadiyyatına göstərəcəyi təsirdən, eləcə də bunlara qarşı öncədən görüləcək tədbirlər haqqında geniş müzakirələr aparırıq. Azərbaycan dövlətinin apardığı iqtisadi siyasət bir çox qlobal risklərin təsirlərini xeyli azaldıb. Buna ən gözəl sübut bir sıra dünya ölkələrinin qlobal böhranla mübarizə apardığı bir zamanda ölkəmizin sürətli inkişaf mərhələsinə keçməsidir. 2018-ci ildə davamlı inkişaf, sosial tərəqqi meyillərini gücləndirməyə əsas yaradan dövlət büdcəsi formalaşdırılıb. Birinci növbədə, dövlət büdcəsinin gəlirləri ötən ilə nisbətən 20 faiz, 2016-cı illə müqayisədə isə 15 faiz çoxdur. Bunlar olduqca yaxşı nəticədir. Bu siyasət davamlı, həm də uzunmüddətli keyfiyyətli inkişaf məqsədlərinə xidmət edəcək. Ölkədə müxtəlif fiskal risklər daim nəzərə alınır və müvafiq maliyyə ehtiyatları toplanır. Əsaslı xərclərin tərkib hissəsi olan dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri 62,5 faiz təşkil edəcək ki, bu da bir sıra strateji layihələrin vaxtında icrası üçün çox vacib nüanslardan biridir. Ümumilikdə, gələn il əsas kapitala investisiya qoyuluşlarının 15,9 milyard manat, xarici investisiyaların 7,7 milyard manat, daxili investisiyaların 8,2 milyard manat olacağı proqnozlaşdırılır. Qeyri-neft sektoruna isə 9,5 milyard manat investisiya yatırılacağı gözlənilir. Dövlət davamlı iqtisadi inkişafa nail olmaq üçün qanunvericilik bazasını da təkmilləşdirir. Xüsusən də, büdcədən regionların sosial-iqtisadi inkişafına yönəldilən vəsaitlərin artırılmasına diqqət ayrılır. Ümumiyyətlə, son illərdə respublikada regionların inkişafı ilə əlaqədar görülən işlərin miqyası kifayət qədər genişdir. Artıq təsərrüfatların, şirkətlərin istehsal etdikləri məhsulların daxili tələbatla yanaşı, ixraca da yönəldilməsinin şahidi oluruq, yeni assosiasiyalar yaranır.




**- Neftin qiyməti ilə bağlı bir sıra beynəlxalq təşkilatlar pessimist proqnozlar verir. Xüsusilə, ABŞ-ın Rusiyaya qarşı yeni sanksiyalar dalğası fonunda bu proqnozlar nə qədər həqiqəti əks etdirir?**

- Bu gün dünyada qlobal risklər artdıqca, bu tendensiyalar da davam edəcək. Neftin qiymətinin ucuzlaşması qeyri-neft sektorunun inkişafını sürətləndirdi, təkan verdi. Yeni biznes reallıqlarını ortaya qoydu. Bu gün neft qiymətləri ilə bağlı beynəlxalq təşkilatlar müxtəlf proqnozlar verə bilər, lakin əmin olun ki, hələ uzun müddət neft dünya iqtisadiyyatında öz liderliyini qoruyub saxlayacaq.

Xarici borclanma prosesinə də qeyri-professionallıqla yanaşanlar var. Onu da qeyd edim ki, dövlət başçısının tapşırığı ilə hazırda dövlətin borclanma strategiyası hazırlanır, xaricdən cəlb edilən vəsaitlərdən məqsədəuyğun formada istifadə edilməsi ön plana çəkilir, nəzarət sisteminin təkmilləşməsi istiqamətində tədbirlər görülür.

Azərbaycan enerji təhlükəsizliyi sahəsində aparıcı söz sahibi olaraq mövqeyini qoruyub saxlayacaq. Ən əsası yeni müqavilədən sonra Azərbaycana gələcək gəlirlər ölkəmizin inkişafına böyük töhfələr verəcək. Bəzən deyirlər "Lənətlənmiş neft dollarları", "Holland sindromu" Azərbaycan iqtisadiyyatına zərbə vurdu və s. Bu fikirləri yalnız qeyri-peşəkar şəxslər, ölkənin tarixi inkişaf xüsusiyyətlərini, reallığı obyektiv qiymətləndirməyənlər söyləyirlər. Neft olmasaydı, müstəqilliyimiz, dövlətimizin dünyanı heyran edən uğurları olmayacaqdı. Ona görə də bu məsələlərə barmaqarası yanaşmaq olmaz. Bu yaxınlarda dövlətimiz Azərbaycanda 2 milyard ton neftin çıxarılmasını böyük bayram kimi qeyd etdi. SSRİ dağılana qədər Azərbaycanın 10 min ton nefti sərbəst satmağa imkanı yox idi. Bu gün ölkəmiz müstəqildir, öz sərvətlərinin sahibidir və ona görə də milli maraqlarımıza cavab verən siyasət yürüdülür. Dövlət büdcəsinin formalaşdırılmasında 1 barrel neftin qiymətinin nə qədər olması həmişə maraq doğurur, geniş müzakirələrə səbəb olur. Hökumət 2018-ci ilin dövlət büdcəsində 1 barrel neftin qiymətinin 45 dollar olmasını məqbul sayıb. Hesab edirik ki, bu rəqəm gözlənilməyən risklərin nəzərə alındığı göstəricidir. Əlbəttə, bu rəqəmi artırmaq və ya azaltmaq olar. İlk növbədə rəqəm artırılarsa, hökumət daha çox risklərə məruz qalar. İkinci halda isə iqtisadi, sosial inkişafdan geri qalıb, mühüm layihələrin reallaşdırılmasında ciddi çətinliklər yaşayardıq. Bir daha qeyd edim, hökumət belə hesab edir ki, 2018-ci il üçün neftin barrelinin 45 dollar müəyyən edilməsi qarşıya qoyulan hədəflərə nail olmağa rahat imkan verəcək.




**- Ziyad müəllim, hazırda dünyanı narahat edən problemlərdən biri də maliyyə böhranıdır. Yaxın gələcəkdə manatın yenidən sürətlə bahalaşması və ya ucuzlaşması gözləniləndirmi? Devalvasiya ehtimalı nə qədər realdır?**

- Ümumiyyətlə, devalvasiyanın bir sıra qaçılmaz səbəbləri oldu. Neftin dünya bazarında qiymətinin sürətlə aşağı düşməsi bizim büdcə gəlirlərimizi azaltdı və bir sıra ciddi çətinliklərin yaranmasına səbəb oldu. Ancaq bu gün manatın sabitliyinin qorunması istiqamətində bir sıra addımlar atılır. Milli valyutanın dönərliyinin qorunub saxlanılması hər bir ölkənin iqtisadi inkişafı və təhlükəsizliyi üçün vacib olan əsas amillərdən biridir. Ona görə də dövlət başçısının bilavasitə təşəbbüsü ilə bu istiqamətdə çox böyük işlər görülür ki, bu da öz uğurlu nəticəsini verir. Bu yaxınlarda Mərkəzi Bankın bu mövzu ilə əlaqədar açıqlamasını müsbət qiymətləndirirəm. Eyni zamanda, Vergilər Nazirliyi tərəfindən keçirilən konfransda da çıxışımda qeyd etdim ki, biz çalışmalıyıq ki, ölkə daxilində pul qıtlığı olmasın, iqtisadiyyat canlansın. Biz həmişə inflyasiyanın, iqtisadi inkişafın dinamikasını, dövriyyədə olan pul kütləsinin ÜDM-ə nisbətinin sistemli təhlilini aparmalıyıq. Manatın yenidən devalvasiyası həqiqətlərə yaxın deyil. Hazırda milli valyutamızın dəyəri stabil olaraq qalıb. Təbii ki, onun dəyərini hər hansı bir sıçrayışla yüksəltmək də mümkün deyil. Lakin hər halda devalvasiya olub, ondan sonra stabilliyin qorunması və təkrar bu problemin yaşanmaması üçün biz idxal-ixrac strukturunu təkmilləşdirməli, tədiyyə balansında müsbət meyilləri nəinki qoruyub saxlamalı, həm də onları gücləndirməliyik. Sahibkarların maliyyə resurslarına çıxışını yaxşılaşdırmalıyıq, onlara regionlarda qeyri-neft sektorunda gördükləri işlərin canlandırılması üçün dəstək verməliyik.

Energetika Nazirliyindən bildirilib ki, Azərbaycanın energetika naziri Pərviz Şahbazov Rusiya Federasiyasının energetika naziri Aleksandr Novakın dəvəti ilə bu ölkəyə səfər edib. İki ölkənin energetika nazirlərinin görüşündə enerji sektorunda əhəmiyyət daşıyan bir sıra aktual mövzular, qlobal enerji bazarında müşahidə edilən yeni proseslər və regional əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinə dair məsələlər müzakirə edilib.

Söhbət zamanı Azərbaycan-Rusiya əməkdaşlığının yüksələn xətt üzrə inkişafının enerji sahəsini də əhatə etdiyi vurğulanıb.

Energetika naziri Pərviz Şahbazov hər iki ölkənin paralel iş rejimində fəaliyyət göstərən enerji sistemlərinin enerji dəhlizinin formalaşdırılması üçün imkanlara malik olduğunu deyib. Onun sözlərinə görə, enerji mübadiləsinin həcminin və keyfiyyətinin artırılması istiqamətində son illər görülən işlər elektrik enerjisi sahəsində əməkdaşlığın yeni mərhələyə daxil olmasına şərait yaradır. Görüşdə iki ölkə arasında enerji mübadiləsinin artırılması və "Şimal-Cənub enerji dəhlizi"nin yaradılmasında vacib rol oynayan Rusiya və Azərbaycan enerji sistemləri arasında "Yaşma-Dərbənd" dövlətlərarası ikinci hava elektrik verilişi xəttinin (HEVX) tikintisi ilə bağlı müzakirələr aparılıb. Yaxın vaxtlarda İşçi Qrupunun iclasının keçirilməsi barədə razılıq əldə olunub. Bundan başqa, "Samur" çayının hidroenergetik resurslarının kompleks şəkildə öyrənilməsi və Su Elektrik Stansiyasının inşası perspektivi də nəzərdən keçirilib. Hər iki tərəf, həmçinin Rusiya-Azərbaycan-Gürcüstan-Rusiya elektroenergetik həlqəsinin yaradılmasında maraqlarını ifadə edərək, üçtərəfli formatda görüşün zəruriliyini vurğulayıblar.

Görüşdə neft-qaz sahəsində "LUKoil", "Gazprom" və "Rosneft" kimi şirkətlərin timsalında uğurlu əməkdaşlıq əlaqələrinə də diqqət yönəlib. OPEC çərçivəsində əməkdaşlığın nəticələrindən bəhs edilib.

Səfər çərçivəsində energetika naziri Pərviz Şahbazov Rusiyanın vahid enerji sistemində mərkəzləşdirilmiş operativ-dispetçer idarəetməsini həyata keçirən "Vahid Enerji Sisteminin Sistem Operatoru" SC-nin işi ilə tanış olub. P.Şahbazov alternativ və bərpaolunan enerji mənbələrinin sistemə qoşulmasına dair Sistem Operatorunun təcrübəsi ilə də maraqlanıb. İki ölkə arasında müvafiq sahədə əməkdaşlığın inkişaf etdirilməsi üçün təkliflər irəli sürüb.

# Vergilər Nazirliyi şəffaflıq və qarşılıqlı etimad təklif edir

Vergilər Nazirliyi vergi ödəyicilərinə müraciət edərək bildirir ki, vergi sistemində həyata keçirilməsinə başlanılmış şəffaflığın təmin edilməsi və vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi prinsipləri vergi ödəyicilərinin də öz öhdəliklərinə qanunauyğun yanaşmasını tələb edir. Şəffaflıq yalnız vergi orqanlarının fəaliyyətini deyil, eyni zamanda, vergi ödəyicilərinin də öz öhdəliklərinə düzgün yanaşmasını əhatə etməlidir.

Vergilərini tam həcmdə və vaxtında ödəyən hər bir intizamlı ödəyici vergi orqanlarının etibarlı tərəfdaşı olacaq və belə ödəyicilər daim dəstəklənəcəkdir.

Vergi hesabatına bilərəkdən saxta məlumatları daxil edənlər və vergidən yayınmağa cəhd göstərənlər isə qanun qarşısında cavab verəcək, onlarla sərt, lakin qanunun müəyyən etdiyi çərçivədə davranılacaqdır. Kiçik və ya böyüklüyündən asılı olmayaraq, hər bir vergi ödəyicisi öz vergi öhdəliyinə əməl etməli, ikili mühasibatlığın aparılması, vergiyə cəlb olunan dövriyyələrin gizlədilməsi, vergidən yayınma halları aradan qaldırılmalıdır.

Sahibkarların öz vergi öhdəliklərini rahat şəkildə yerinə yetirməsi üçün mövcud sistem, vergi ödəyicilərinə göstərilən xidmətlər ödəyicilərin gözləntilərinə və tələblərinə uyğun şəkildə təkmilləşdiriləcəkdir.

Vergi sistemində kadrların yenidən komplektləşdirilməsi, barəsində şikayətlər daxil olan vergi məmurları haqqında ölçü götürülməsi, peşəkarların irəli çəkilməsi ilə bağlı tədbirlərə də başlanılmışdır.

Vergilər Nazirliyi ödəyicilərə keyfiyyətli xidmətlər, qarşılıqlı etimad təklif edir, onları eşitməyə, qanuni tələblərinin həllinə kömək göstərməyə hazırdır. Vergi ödəyicilərindən isə intizamlı olmaq və vergi qanunvericiliyinin tələblərinə tam əməl etmək tələb olunur.

# Vergilər naziri İsveçrə Konfederasiyasının səfiri ilə görüşüb



Fevralın 16-da vergilər naziri Mikayıl Cabbarov İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Filip Ştalder ilə görüşüb. Görüşdə iki ölkənin vergi orqanları arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın mövcud durumu, qarşılıqlı maraq doğuran sahələr üzrə təcrübə mübadiləsi və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib. Görüş zamanı Azərbaycanda fəaliyyət göstərən İsveçrə şirkətləri və onların vergi orqanları ilə əməkdaşlığı ətrafında da fikir mübadiləsi aparılıb.

# Vergilər naziri Böyük Britaniya baş nazirinin ticarət elçisi ilə görüşüb



Vergilər naziri Mikayıl Cabbarov fevralın 15-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında mövcud iqtisadi əlaqələr, əməkdaşlıq perspektivləri, vergi sahəsində əlaqələrin genişləndirilməsi, investisiya mühiti kimi məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Bununla yanaşı, vergilər naziri Birləşmiş Krallığın Gəlirlər və Gömrük Xidməti ilə ikitərəfli və çoxtərəfli müstəvidə səmərəli əməkdaşlığın mövcud olduğunu və Vergilər Nazirliyinin bu əməkdaşlığın vergitutmanın müxtəlif sahələri üzrə davam etdirilməsində maraqlı olduğunu bildirib.

Baronessa Nikolson Böyük Britaniya şirkətlərinin Azərbaycanın qeyri-neft sektoruna investisiya qoyuşlarının artırılmasının, həmçinin kənd-təsərrüfatı, turizm və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayıb. Həmçinin, xanım Nikolson Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi və bu sahədə islahatların davam etdirilməsi baxımından hər iki ölkənin vergi qurumları arasında əlaqələrin genişləndirilməsinə daim dəstək verməyə hazır olduğunu bildirib.

# "SOCAR Polymer": Polipropilen zavodunda işlərin 97,9 faizi, yüksəksıxlıqlı polietilen zavodunda isə 89,5 faizi yekunlaşıb




"SOCAR Polymer" layihəsi üzrə polipropilen zavodunda işlərin 97,9 faizi, yüksəksıxlıqlı polietilen zavodunda isə 89,5 faizi yekunlaşıb.

Bu barədə SOCAR məlumat yayıb.

"Bu il istismara verilməsi planlaşdırılan "SOCAR Polymer" zavodlarında tikinti işləri yekunlaşmaq üzrədir. Belə ki, polipropilen zavodunda müxtəlif istiqamətlərdə işlərin 97,9 faizi, yüksəksıxlıqlı polietilen zavodunda isə 89,5 faizi tamamlanıb", - deyə SOCAR bildirib.

Qeyd edək ki, Sumqayıt Kimya Sənaye Parkının nəzdindəki "SOCAR Polymer" layihəsi üzrə işlər son mərhələyə keçib. "SOCAR Polymer" zavodunun 2018-ci ildə tam istismara verilməsi planlaşdırılır. Zavodda illik 120 min ton yüksək sıxlıqlı polietilen və 180 min ton polipropilen istehsalı nəzərdə tutulur. Paralel olaraq müəssisənin xammalla təmin edilməsi məqsədilə zəruri tədbirlər görülür. "Azərikimya"da yeni istehsalat bölmələri yaradılır, qurğular inşa edilir, mövcud avadanlıqlarda rekonstruksiya və modernləşdirmə işləri aparılır.

KİVDF
Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# TƏRTƏR RAYONU: BÜTÜN UĞURLARIN TƏMƏLİNDƏ İDARƏETMƏNİN DÜZGÜN TƏŞKİLİ DAYANIR

Azərbaycanın mənfur qonşumuz Ermənistan tərəfindən məruz qaldığı işğalçılıq siyasəti nəticəsində 25 ildən artıqdır ki, sərhəd bölgələrində yerləşən rayonlarının, yaşayış məntəqələrinin rahatlığı pozulmuşdur. Burada yaşayan insanların qulaqları hər gün atəş səsləri eşidir, mərmilərdən evlər dağıdılır, insanlar məhv edilir, təsərrüfatlara böyük ziyan vurulur. Dünya Birliyinin bu ədalətsizliyə göstərdiyi susqunluq davam edir. Düşmənlə üz-üzə dayanan rayonlarımızdan biri də Tərtər rayonudur. Bütün ağrı-acılara, itkilərə, çətinliklərə rəğmən, rayonda həyat qaynayır. Yeni evlər tikilir, qəsəbələr salınır, genişmiqyaslı infrastruktur layihələri reallaşdırılır, kənd təsərrüfatı inkişaf etdirilir, iqtisadiyyat möhkəmlənir, sahibkarlıq fəaliyyəti genişləndirilir. Tərtər rayonuna hər səfərimiz zamanı burada yaşanan coşqu və qələbəliyi görüb məmnunluq hissləri keçiririk və bir daha inanırıq ki, torpaqlarımızı tez-gec geri qaytaracağıq.

Tərtər rayonunun nə az, nə çox uzunluğu 47 kilometr olan ərazisi düşmənlə təmasdadır. Tərtər həm də iri kənd təsərrüfatı rayonudur. Tərtər sərhəd bölgəsində yerləşdiyinə görə qayğı və problemləri birə-beş qat çoxdur. Lakin bütün problemlər gecikmədən, ləngimədən öz həllini tapır.

İqtisadi və sosial sahədə inkişafı ifadə edən rəqəmləri təhlil etdikdə ilk andaca görünür ki, rayon bütün sahələr üzrə dinamik inkişaf etmiş, tikinti-quruculuq və abadlıq işləri geniş vüsət almış, onlarla inzibati, səhiyyə, təhsil, mədəniyyət obyektləri tikilmiş və əsaslı təmir edilmiş, rayon mərkəzi, kəndlər, qəsəbələr öz simasını köklü şəkildə dəyişmişdir.

Rəqəmlərin miqyası, nəticələrin təhlili, inkişafın dinamikası müsbət tendensiyanın davamlı və dayanıqlı olacağından xəbər verir. 2017-ci ildə rayonda ümumməhsul buraxılışının həcmi 254,1 milyon manat olmuş, əvvəlki ilə nisbətən 28,4 faiz artmışdır. Sənaye məhsulunun həcmi 3,3 faiz artaraq 12 milyon 372 min manat, kənd təsərrüfatı məhsullarının həcmi 10,3 faiz artaraq 61 milyon 908,1 min manata çatmışdır.

Keçən il 119 milyon 182 min manatlıq əsas fondlar istifadəyə verilmiş, əsas kapitala yönəldilən investisiyaların həcmi 140 milyon 228,3 min manat olmuşdur. Bunun 87,9 faizi və ya 123 milyon 295,5 min manatı tikinti-quraşdırma işlərinə yönəlmişdir. Əvvəlki ilə nisbətən investisiyaların həcmi 80,5, tikinti-quraşdırma işləri 60,8 faiz artmışdır. Rayonda 1309 daimi olmaqla, 5000 yeni iş yeri açılmışdır.

2017-ci il hər bir Tərtər sakini üçün unudulmaz il olmuşdur.



Çünki keçən ilin noyabr ayının 28-də rayona səfər edən Prezident İlham Əliyev elə həmin gün 24 min nəfər əhalinin yaşadığı, 20 yaşayış məntəqəsini birləşdirən Tərtər-Seydimli, Qarabağlı-Sarov avtomobil yolunun, Tarix-Diyarşünaslıq Muzeyinin, 1170 məcburi köçkün ailəsi üçün salınmış qəsəbənin açılışında iştirak etmiş, Tərtər rayonunun ictimaiyyətinin nümayəndələri, məcburi köçkünlərlə görüşmüşdür. Cənab Prezident İlham Əliyev Tərtər rayonu haqqında danışarkən demişdir: «Bu gün Tərtər rayonu uğurla inkişaf edir. Sosial-iqtisadi inkişaf göz qabağındadır. Düşmənlə üz-üzə dayanan tərtərlilər həmişə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində xüsusi rol oynamışlar».

2017-ci ildə də «2014-2018-ci illərdə respublika regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrası uğurla davam etdirilmişdir. Yuxarıda da deyildiyi kimi, rayonda abadlıq-quruculuq işləri bir an belə səngiməmiş, Azərbaycan Respublikası Prezidentinin tapşırıq və sərəncamlarına uyğun olaraq Tərtər şəhərində 42 çoxmənzilli yaşayış binası, o cümlədən həyətlər təmir edilmiş, asfalt örtüyü, yaşıllıq zolaqları, çəmənliklər salınmışdır. Bu işlərin görülməsinə 200-dən artıq rayon sakini cəlb edilmişdir. Şəhərin Heydər Əliyev prospektində müasir standartlar səviyyəsində Tərtər-Diyarşünaslıq Muzeyi, Təhsil Nazirliyinin xətti ilə müasir tipli Bayandur ibtidai məktəbi tikilib istifadəyə verilmişdir. Poladlı kənd əsas məktəbinin tikintisi, 6 saylı tam orta və Qəzyan kənd ümumi orta məktəblərinin əsaslı təmiri davam etdirilir.

«Azəravtoyol» ASC Sarov ərazisində yeni körpünü tikib istifadəyə vermiş, Tərtər-Seydimli-Qaradağlı-Sarov yolunun yenidən qurulması tam başa çatdırılmışdır. Tərtər şəhərinin 17 küçəsində ümumi uzunluğu 8,6 kilometr olan yollara asfalt-beton örtüyü salınmışdır. Həsənqaya və Çaylı kəndlərində məskunlaşmış 78 məcburi köçkün ailəsinə yaşadıqları həyətlərində fərdi yaşayış evləri tikilib təhvil verilmişdir. Şıxarx kəndi ərazisində «Marağa-150» tarixi abidə kompleksinin ətrafında abadlıq işləri görülmüşdür. Cənab prezidentin sərəncamına müvafiq olaraq, 2017-ci ildə 11 kəndin içməli su ilə təminatı layihəsi başa çatdırılmışdır. Ekoloji və bioloji tarazlığın qorunması üçün yaşıllaşdırma tədbirləri diqqət mərkəzində saxlanılır. Rayon mərkəzində, kəndlərdə və yol kənarlarında, eləcə də meşə zolaqlarında 40 mindən çox müxtəlif ağac, 1,5 milyon həmişəyaşıl və 10 min gül kolları əkilmişdir.

Tikinti-quruculuq və abadlıq işləri sahəsində çox tədbirlər görülsə də, bu tərtərliləri arxayın salmır. 2018-ci ildə də görüləcək işlər az olmayacaq. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 30 noyabr 2017-ci il tarixli sərəncamı ilə ayrılan 3 milyon manat vəsait hesabına 20 çoxmənzilli binanın əsaslı təmiri və abadlıq-quruculuq işləri başa çatdırılacaqdır.

Tərtər çayı sahilində 5 hektar ərazidə parkın tikintisi, Heydər Əliyev prospektində Bayraq Muzeyinin, Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının, Olimpiya İdman Kompleksinin, 200 nəfərin işləyəcəyi xalçaçılıq sexinin, Tərtər Su-Kanal İdarəsinin inzibati binasının, 100 nəfərlik körpələr evi-uşaq bağçasının tikintisi bu ilin sonunacan başa çatdırılacaq. «Azəravtoyol» ASC-nin xətti ilə Tərtər-Quzanlı magistral yolunun, Buruc-Gülbəndi-Xoruzlu-Bayandur-Qaradağlı kəndarası avtomobil yolunun əsaslı təmiri, Tərtər şəhərinin içməli su və kanalizasiya sistemi layihəsinin davamı olaraq təmizləyici qurğunun tikintisi və 5 kəndin içməli su ilə təminatı layihəsinin icrası nəzərdə tutulmuşdur. Yeni yaradılan bütün bu infrastruktur obyektləri azad sahibkarlığın və liberal iqtisadiyyatın yüksələn xətt ilə inkişafına böyük təkan vermişdir. Dövlət tərəfindən sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir ki, hazırda rayonda sahibkarlıqla məşğul olanların sayı artaraq 4030 nəfərə çatmışdır.

Hazırda kənd təsərrüfatı məhsullarının hamısı, sənaye məhsullarının isə böyük hissəsi özəl sektorda formalaşır.

Sahibkarlığa kömək Milli Fondu 2017-ci ildə kənd təsərrüfatı məhsulları istehsalına görə 27 sahibkarlıq subyektinə 312 min manat güzəştli kredit vermişdir.

Artıq deyildiyi kimi, Tərtər rayonunun iqtisadiyyatının əsasını aqrar bölmə təşkil edir. Odur ki, rayonda bu sektorun inkişafı üstün mövqeyə çıxarılmışdır. Bu gün aqrar sahəni yeni texnologiyalar üzərində qurmaq sahibkarlar zümrəsinin qarşısında duran əsas vəzifələrdəndir.

2017-ci ilə gəlincə, bu ilin məhsulu üçün kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 26,4 min hektar təşkil etmişdir. Bunun 9843,2 hektarını dənli və paxlalı, 6317 hektarını texniki bitkilər təşkil etmişdir. Keçən il 6909 hektardan 26431 ton buğda, 260 hektardan 8150 ton arpa istehsal olunmuşdur.

Dənli və paxlalı bitkilərin hər hektarının orta məhsuldarlığı 36,7 sentner, o cümlədən buğdanın məhsuldarlığı 38,3 sentner təşkil etmiş, 2016-cı ilə nisbətən dənli və paxlalı bitkilərin məhsuldarlığı 2,5 sentner artmışdır. Bu da respublikanın orta göstəricisindən 6,9 sentner çoxdur. Dövlət başçısının tapşırıq və göstərişlərinə uyğun olaraq, pambıqçılığın inkişaf etdirilməsi, onun əvvəlki şöhrətinin özünə qaytarılması istiqamətində məqsədyönlü tədbirlər görülmüşdür. Həyata keçirilən tədbirlər öz bəhrəsini vermişdir. Belə ki, rayonda 3123 hektar sahədə pambıq əkini aparılmış, əvvəlki ilə nisbətən əkin sahələrinin həcmi 3 dəfə artırılmışdır. İl ərzində 8420 ton pambıq tədarük edilmişdir ki, bu da əvvəlki ilə nisbətən 3,6 dəfə çoxdur. Hər hektarın məhsuldarlığı 22 sentner təşkil etmişdir ki, bu da əvvəlki ilə nisbətən 4,5 sentner çoxdur. Tərtər rayonu hər hektarın orta məhsuldarlığına görə respublika üzrə birinci yerdədir. İstər pambıq, istərsə də digər bitkilərin becərilməsi yüksək aqrotexniki qaydalara uyğun şəkildə aparılmışdır. Məhz bunun nəticəsidir ki, 1541 hektar sahədən 15728 ton şəkər çuğunduru təhvil verilmiş, əvvəlki ilə nisbətən məhsuldarlıq 15,6 faiz artmışdır. Hər hektarın məhsuldarlığı 42,6 ton olmuşdur.

2017-ci ildə pambıqçılıqdan 5,5 milyon manat, şəkər çuğundurundan 4,5 milyon manat, günəbaxandan 3 milyon manat gəlir əldə olunmuşdur.

Kümçülər 4610 kiloqram barama istehsal etmişlər ki, bu da 2016-cı illə müqayisədə 4,8 dəfə çoxdur. Son iki ildə rayon ərazisində 124 min ədəd tut tingi əkilmişdir ki, bunun da 70 mini Çin Xalq Respublikasından gətirilmişdir.

Hazırda Tərtər rayonunda 27367 baş iri mal-qara, 66351 baş davar vardır. Ötən illə müqayisədə ət istehsalı 2,8 faiz, süd istehsalı 7,5 faiz, yumurta istehsalı isə 1,7 faiz artmışdır. Yuxarıda sadalanan hər bir rəqəmin arxasında insan zəhməti, insan əzmi dayanır. Hər bir işin uğuru onun möhkəm təməl üzərində qurulmasından asılıdır. Ulu öndər Heydər Əliyev və onun layiqli davamçısı cənab Prezident İlham Əliyev tərəfindən yaradılan mükəmməl dövlətçilik modeli bu təməlin sütunlarıdır.

Tərtər rayonunda idarəetmə mexanizmi yüksək meyarlara söykənir. Bu gün rayonda bütün məsələlər kompleks şəkildə həll edilir. Söhbət sosial-iqtisadi, mədəni, ekoloji, azad sahibkarlıq, liberal iqtisadiyyat və digər problemlərin paralel şəkildə, bir-biri ilə üzvi vəhdətdə həll edilməsindən gedir. Bir sahənin inkişaf etdirilib, digər sahənin ləngiməsi sonucda heç bir səmərə verə bilməz. Bu mənada Tərtər rayonunda işlər rəvan gedir, qarşıya qoyulan bütün vəzifələr uğurla yerinə yetirilir.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# Tələbələrin nəzərinə: Biznes ideya müsabiqəsi başlayır




Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, "Kapital Bank" ASC və UNEC-in birgə təşkilatçılığı ilə tələbələr arasında 3-cü "Made in Azerbaijan" biznes ideya müsabiqəsinə start verilir.

Müsabiqənin məqsədi Prezident İlham Əliyevin "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" imzaladığı Sərəncamın tətbiqinə ali təhsil müəssisələri səviyyəsində dəstək vermək, tələbələr arasında sahibkarlıq fəaliyyətini təbliğ etməkdir.

Müsabiqədə Azərbaycanın bütün ali məktəblərinin tələbələri işirak edə bilər. Müsabiqədə ilk üç yeri tutan tələbələr qiymətli hədiyyələrlə yanaşı, bir həftə Türkiyənin aparıcı universitetlərində fəaliyyət göstərən uğurlu startapların təcrübəsinin öyrənilməsi imkanını əldə edəcəklər.

Biznes ideya fərdi olaraq hazırlanmalı, sərəncama və müsabiqənin missiyasına uyğunlaşdırılmalıdır. Eyni zamanda, mövzuya modern, orijinal, kreativ və aktual yanaşma olmalıdır. Layihənin daxili bazarda tətbiqinin reallıq imkanları da nəzərə alınmalıdır.

Biznes ideyaların qəbulu martın 31-dək davam edəcək. Təqdim edilən biznes ideyaları aprelin 1-dən 20-dək ekspert şurası dəyərləndirəcək və finalçılar müəyyənləşdiriləcək. Müsabiqənin final mərhələsi aprel-may aylarında keçiriləcək.

Müsabiqədə iştirak etmək istəyənlər biznes ideyalarını ideya@unec.edu.az elektron ünvanına göndərə bilər. Qeydiyyat zamanı e-ünvanın "mövzu/ subject" bölməsində "biznesideya 2018" sözü qeyd olunmalıdır.

KİVDF
Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
www.kivdf.gov.az

# Fərdi jurnalist yazıları müsabiqəsi elan edildi

Qaradağ Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə təşkilatçılığı ilə fərdi jurnalist yazıları müsabiqəsi elan edilmişdir.

Məqsədi Qaradağ rayonunun sosial-iqtisadi və ictimai həyatındakı proseslərin ictimaiyyətə daha yaxından çatdırılmasında peşəkar jurnalist yaradıcılığını stimullaşdırmaq olan müsabiqənin mövzusu "Qaradağ rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər"dir.

Müsabiqəyə təqdim olunan yazılara aid tələblər, yazıların qəbul qaydaları, tələb olunan sənədlər və qiymətləndirmə meyarları ilə www.kivdf.gov.az saytında tanış ola bilərsiniz.

**Müsabiqədə I yer üçün 1 nəfər (1000 manat); II yer üçün 2 nəfər (800 manat); III yer üçün 3 nəfər (600 manat)**

yazı qaliblərinin mükafatlandırılması nəzərdə tutulmuşdur.

Bundan əlavə, 10 yazı müəllifinə (hər biri 200 manat) həvəsləndirici mükafatlar veriləcəkdir.

Qaliblər, həmçinin Qaradağ Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun xüsusi diplomu ilə təltif olunacaqlar.

# PAŞA Bank Azərbaycan bazarında ilk dəfə olaraq sindikatlaşdırılmış kreditin ayrılmasını təşkil etmişdir

Azərbaycanın ən iri banklarından biri olan PAŞA Bank öz müştərisi üçün sindikatlaşdırılmış kreditin cəlb edilməsinin əsas təşkilatçısı qismində çıxış etmişdir. Krediti alan tərəf isə səhmləri London birjasında ticarət olunan Anglo Asian Mining Plc şirkətinin Hasilatın Pay Bölgüsü Haqqında Sazişinə əsasən Azərbaycan ərazisində qızıl, gümüş və mis kimi əlvan metalların hasilatı və istehsalı ilə məşğul olan törəmə müəssisəsi və eyni zamanda, ölkəmizin qeyri-neft sektorunda ən böyük qeyri-hökumət ixracatçısı Azerbaijan International Mining Company Limited şirkəti olmuşdur.

Bu kredit Azərbaycan bazarında təşkil edilmiş ilk sindikatlaşdırılmış kredit olmuşdur. PAŞA Bankın İdarə heyətinin sədri Taleh Kazımovun sözlərinə görə, Azərbaycanın aparıcı korporativ bankı olaraq biznes tərəfdaşlarımızın bankımıza olan inamı və onlara göstərdiyimiz dəstəyə və xidmətlərimizə hər zaman güvəni bizim üçün çox önəmlidir.

"PAŞA Bankın maliyyə stabilliyini və kredit bazarındakı geniş təcrübəsini nəzərə alaraq biz əlverişli bazar şərtləri ilə müştərimizin maliyyələşdirilməsini təşkil etdik.

Ümumilikdə isə, regiondakı makroiqtisadi çağırışlar fonunda yerli bazarda fəaliyyət göstərən şirkət üçün bu növ krediti almaq Bankımıza olan böyük etimadın göstəricisi və bütün bazar üçün isə müsbət bir əlamətdir", - deyə T.Kazımov fikrini tamamladı.

Qeyd edək ki, $13,5 milyon həcmində kredit 2 illik müddətə illik faiz dərəcəsi 7% olmaqla ayrılmışdır. Sindikatlaşdırılmış kredit qismində ayrılmış maliyyə vəsaiti krediti alan təşkilatın xarici və yerli kreditorlar qarşısındakı maliyyə öhdəliklərinin yenidən maliyyəşdirilməsi üçün sərf olunacaq.

# Reklam elanlarının bədii tərtibatı

**(əvvəli ötən sayımızda)**

Prospektlərin, kataloqların və çap reklamının digər növlərinin hazırlanması zamanı tərtibat eskizi sifarişçi tərəfindən təsdiq edildikdən sonra çap materialı, formatı, üsulu, şriftin miqdarı ilə əlaqədar hazırlanma məsələlərini həll etmək lazımdır. Tərtibata olan tələbləri hazırlanmanın texniki imkanları ilə əlaqələndirmədə nəzərdən keçirmək lazımdır. Reklam vasitələrinin icrasının müxtəlif növləri tirajın miqdarı, kağızın keyfiyyəti, çap üsulu və növü ilə müəyyən olunur. Məsələn, maşının detallarının kontur təsvirləri üçün yüksək keyfiyyətli kağız lazımdır ki, bunun üzərində foto üçün nazik rastr (avtotipiya hazırlanma işində tətbiq edilən topşəkilli optik cihaz) tətbiq olunmalıdır.

Bu və ya digər çap növünün bütün texniki şərtləri vəsaitlərə qənaət edilməsi və istehsal müddətlərinin qısaldılması naminə nəzərə alınmalıdır. Bu tələblərin nəzərə alınması poliqrafiya sahəsində xüsusi biliklərin reklam işçiləri tərəfindən mənimsənilməsini zəruri edir. Çoxaldılmağa məruz qalan orijinal nüsxələrin miqdarı, illüstrasiyaların xarakteri, çapın keyfiyyəti – bu və ya digər çap nəşrinin çoxaldılması zamanı hansı çap növünün tətbiqini müəyyən edən amillərdir. Əgər reklam təşkilatı çap növlərindən biri ilə əlaqədardırsa, onda qrafik rəssamlığın həmin mətnin imkanlarına uyğunlaşdırılmasına çalışmaq lazımdır.

Qrafik rəssam, hər şeydən əvvəl, bilməlidir ki, o, hansı çap növü üçün orijinalı hazırlayır və bu və ya digər çap növünün üstünlüklərini nəzərə alır.

Reklam dizaynı

Dizayn (ing. "designe" – "layihələndirmək", "çəkmək" deməkdir) predmet aləminin layihələndirilməsi, tərtibatı üzrə fəaliyyət növüdür.

Dizaynın əsas növləri:
- predmet (konkret obyektə bağlı dizayn);
- mühəndis-sənaye dizaynı, burada predmetin xarici görünüşü utilitar funksiyalarla müəyyən olunur;
- stayling sənaye dizaynıdır ki, burada aksent, yəni vurğu tərtibat vəzifələrinə yönəldilir;
- bədii konstruksiya etmə sənaye dizaynıdır ki, burada predmetin utilitar və estetik tərəfləri bərabər dərəcədə onun dizaynını müəyyən edir;
- qrafik çap məhsulu dizaynıdır;
- predmetlərarası (mühitin predmet qarşılıqlı əlaqələrinin layihələndirilməsi);
- non-dizayn – şəxslərarası münasibətlərin layihələndirilməsi, əsasən utilitar xarakter daşıyır. Bura mətnlərin, sənədlərin, müqavilələrin, sazişlərin tərtib olunması daxildir.
- art-dizayn - incəsənət dizaynıdır, utilitar tərəf yoxdur, ya da ikinci dərəcəlidir;
- sistemli dizayn – obyektin fəaliyyət göstərməsinin yaradılması və təminatı üzrə fəaliyyətin bütün istiqamətlərinin layihələndirilməsi.

Reklamın dizaynı reklamın müxtəlif elementlərinin seçilməsi və düzəldilməsi vasitəsilə müəyyən, ən səmərəli vizual formaya uyğun reklam ideyasının işlənib hazırlanması və təcəssüm olunması prosesidir.

Reklam dizaynerinin fəaliyyətinin əsas aspektləri:
- analitik - reklam olunan əmtəənin adekvat bədii obrazının formalaşması üçün zəruri olan informasiyanın əldə olunması;
- kreativ;
- yaradıcı ideyanın işlənib hazırlanması;
- reklam xəbərlərinin qurulması;

Keyfiyyətli reklamın yaradılması üçün dizaynerə müştəridən aşağıdakı informasiyanın alınması vacibdir:
- firma haqqında keçirilən reklam kampaniyasının məqsəd və vəzifələri;
- şirkətin firma üslubu;
- əmtəə haqqında;
- əmtəə nədən ibarətdir?
- əmtəə hansı mövqedədir?
- o, istehlakçıların hansı tələbatlarını ödəyir?
- əmtəənin nadirliyi nədədir?
- əmtəənin faydası haqqında bildirişlər nə ilə möhkəmlənir?



- məqsədli auditoriya;
- məqsədli auditoriya hansı kəmiyyət və keyfiyyət xarakteristikalarına malikdir?
- məqsədli auditoriya məqsədli bazardan fərqlənirmi?
- reklamın tipi necə olmalıdır?
- hansı kommunikasiya yanaşması bu auditoriya üçün əlverişlidir?

Beləliklə, reklam vasitələri istehlakçıya reklam informasiyasının çatdırılmasına xidmət edən informasiya üsulları və maddi daşıyıcıdır və reklam təsirindən yaranan zəruri effekti təmin edir.

Reklam vasitələri iki yerə bölünür;
- xəbər (onun məzmunu və forması);
- reklam xəbərinin texniki daşıyıcısı (jurnal, televiziya).

Reklam vasitələri aşağıdakılara görə təsnifləşdirilir:
- hissiyat orqanlarına təsir üzrə;
- müşahidə (görmə);
- səs;
- müşahidə-səs;
- reklam informasiyasının daşıyıcısının reklam olunan obyektə münasibəti;
- nümayiş (bu zaman reklam vasitələri bilavasitə obyekti nümayiş etdirir, məsələn, avtosalonda avtomobili);
- təsvir və söz (reklam vasitələri obyekti təsvir edir);
- nümayiş və təsvir (həm nümayiş, həm də təsviri elementləri əlaqələndirir).

Beləliklə, reklam elanlarının bədii tərtibatı reklamın məzmununa uyğun gəlməlidir.

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# Ölkəmizdə ilk dəfə Virtual ATS xidməti istifadəyə verildi

Azərbaycan rabitə bazarının lider mobil operatoru Azercell Telekom MMC 4,5 milyonluq abunəçi ailəsi üçün daha bir unikal və yeni xidməti istifadəyə verib. Fevralın 15-də Bulvar Otelde baş tutan xidmətin təqdimat mərasimində şirkət rəhbərliyi və Azercell-in 250 korporativ müştərisi iştirak edib. Mərasimdə məhsulun Demo versiyası nümayiş etdirilib və xidmətlə bağlı bütün suallar cavablandırılıb. Bildirilib ki, ölkəmizdə ilk dəfə tətbiq olunan "Virtual ATS" həlli ilə şirkətlər rabitənin yeni səviyyəsindən yararlanacaqlar. Bu həll ilə şirkətlər smartfonlar üçün ATS-in təşkili, müştəri xidmətləri mərkəzinin yaradılması və reklam kampaniyaları keçirilən zaman çoxkanallı "qaynar xətt"-in qurulmasına nail ola biləcəklər. Bundan başqa, Virtual ATS həlli fərdi telesekretar, konfrans zəng, zənglərin idarə edilməsi və digər 10-a yaxın funksiyalarla bizneslərə eksklüziv imkanlar verir. Hazırda əsas diqqətin xərclərə qənaətə yönəldiyi bir zamanda bu həll ilə şirkətlər əlavə avadanlıq xərcləri çəkmədən səmərəliliyi artıracaqlar.



Virtual ATS xidməti mövcud olan mobil və stasionar telefonları ümumi şəbəkəyə birləşdirməyə imkan yaradır. Bu xidmət ilə istifadəçi daxil olan zəngləri qəbul etmək və paylamaq üçün vahid çoxkanallı nömrə əldə edir. Yeni xidmət mövcud və potensial müştərilərlə ünsiyyəti asanlaşdırır, həmçinin şirkətin ofisləri və bölmələri arasında rabitənin effektivliyini artırır. Bir sözlə, Virtual ATS biznesinizi genişləndirən zaman və ya yeni bir ofisə keçdiyinizdə əvəzsizdir. Həmçinin, bu xidmət adi telefon stansiyasının qoşulması çətin olduğunda və ya əlavə xərc tələb etdiyində zəruri olacaq. Virtual ATS xidmətin üstünlüklərinə gəldikdə isə:
- Mini ATS və əlavə avadanlıq almaq tələb olunmur;
- Şirkət nömrəsi bütün ofis və filialları üçün eyni olacaq.

Azercell mobil ehtiyaclarınıza uyğun olaraq, sizə "Standart" və "Premium" Mobil ATS paketlərini də təqdim edir.

# Baramanın "Science via Media" layihəsinin mükafatlandırma mərasimi baş tutmuşdur



Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi, Azercell və PAŞA Bankın dəstəyi ilə Bakı Dövlət Universitetində yerləşən, tələbələrin özünüinkişaf laboratoriyası olan Barama Media Mərkəzi tərəfindən gənclik üçün möhtəşəm şans olan "Science via Media" layihəsi uğurla tamamlanmış və qaliblərə mükafatlar təqdim edilmişdir. Qaliblərin məyyən edilməsi Youtube kanalı və münsiflər tərəfindən verilən ballar əsasında baş tutub. Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin rəhbəri İmran Bağırov və Bakı Dövlət Universitetinin Mətbuat Xidmətinin rəhbəri Pərvanə İbrahimova tədbirin əvvəlində çıxış edərək "Science via Media"nın gəncləri monoton təhsil vərdişlərindən fərqli olaraq elmin praktiki və görünməyən sahəsinin işıqlandırılmasına cəlb edəcəyini, müsabiqə üçün hazırlanacaq videoçarxlar vasitəsiylə həm müsabiqədə iştirak edəcək gəncliyin, həm də ümumi toplumun məlumatlanmasına və faydalanmasına töhfə verəcəyini qeyd etmişlər.

Həmçinin, 19 fevral 2018 tarixində Bakı Dövlət Universitetində baş tutan bağlanış mərasmində "Technote" startupının rəhbəri Fərid Pərdəşünas, Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev və tanınmış aktyor, video bloger Əlixan Rəcəbovun təqdimatında media sahibkarlığı mövzusunda panel müzakirə də rellaşıb. Müzakirələr zamanı tələbələrə mediada startuplar, yeniliklər haqqında təcrübədən doğan məlumatlar verilərək, onların sualları cavablandırılıb.

"Science via Media" müsabiqəsində 1-ci yeri Nigar Abbasova və Vüsalə Hacıyeva "X (Məchul)" adlı çarxla, 2-ci yeri Ayna Zərbəliyeva və Çiçək Məmmədova "Genetik Yaddaş" çarxı ilə və 3-cü yeri Nurlan Salamov "Klonlama" mövzusunda hazırladığı video-çarxla qazandılar.

Qeyd edək ki, "Science via Media" layihəsi yarış formatında baş tutmuş və layihə elmi izahların media dilində topluma çatdırılmasıyla gənclərin elmə, təhsil, özünüinkişafa olan maraqlarını artırmağı hədəfləyərək, 5 mövzuda gənclərdən iştirakçı qismində videolar qəbul etmişdir.

# Bakcell"dən növbəti 5 startap layihəsinə dəstək



Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi "Bakcell" şirkəti özünün "AppLab" Mərkəzində yaradılıb inkişaf etdiriləcək növbəti layihələrin seçimini başa çatdırıb.

2017-ci il 15 dekabr-15 yanvar 2018-ci il tarixlərini əhatə etmiş ərizə qəbulu mərhələsində gənc developerlər tərəfindən hazırlanmış 32 layihə proqramda iştirak üçün müraciət edib. İlkin seçim mərhələsindən keçən 17 layihənin müəllifi Bakcell şirkətinin rəhbərliyi, potensial investorlar, "AppLab" proqramının məzunları və IT sahəsi üzrə ekspertlərdən ibarət "AppLab" Komitəsinin qarşısında öz ideyalarını təqdim ediblər. 2018-ci ilin 1 fevral tarixində keçirilmiş təqdimat və seçim mərhələsində layihə müəllifləri tərəfindən mobil əlavələr, animasiya, artırılmış reallıq (Augmented reality), proqram və avadanlıq təminatı kimi sahələri əhatə edən ideya və layihələrin 10 dəqiqəlik təqdimatı keçirilib. Layihələr ekspertlər tərəfindən məqsədəuyğunluq, innovasiya, real yanaşma, biznes modeli, təqdimat üsulu və komanda işi kimi meyarlar əsasında qiymətləndirilib.

Nəticədə, proqramda iştirak üçün 5 ən maraqlı layihə seçilib. Seçilmiş komandalar "AppLab" mərkəzində təqdim olunan pulsuz İnternet, masa və təlim otaqları ilə yanaşı, üzərində işlədikləri proqram təminatı və cihazların inkişaf etdirilməsi və sınaqlardan keçirilməsi üçün tələb olunan ən son avadanlıqlardan yararlana biləcəklər. "Bakcell"in və "AppLab" proqramının digər partnyorlarının nümayəndələrindən ibarət olan xüsusi ekspertlər qrupu gənc developerləri öz ideyalarını yerli və beynəlxalq bazarda rəqabət apara biləcək yeni məhsul və ya xidmətlərə çevirmək üçün tələb olunan araşdırma və məsləhətlərlə təmin edəcək.

Beləliklə, növbəti 6 ay ərzində "Bakcell"in "Applab" proqramında iştirak edəcək layihələr aşağıdakılardır:
1. Run2Help - istifadəçinin gün ərzində atdığı addımları sayıb, onları pul vəsaitinə çevirən və qazanılmış məbləğı xeyriyyə məqsədilə ianə etmək imkanı verən mobil əlavə;
2. Way To Future – müxtəlif hazırlıq kursları və təlim imkanlarını təklif edən şirkət və təşkilatlar üçün elan platforması;
3. Vavelya – xüsusi tortlar, gül, orijinal hədiyyələr və tərəvəz buketlərini onlayn sifariş etmək imkanı verən elektron platforma;
4. Tusi – səhiyyə, təhsil və hətta alış-veriş üçün istifadə oluna bilən artırılmış reallıq tətbiqetməsi;
5. MadebyAz – yerli əl işi, suvenir və digər unikal məhsulları istehsal edən yaradıcı şəxslərə öz məhsullarını müvafiq internet səhifəsində nümayiş etdirib dünyanın istənilən ölkəsində satış üçün təklif etmək imkanı verən elektron platforma.

Qeyd etmək lazımdır ki, təqdim edilmiş bütün layihələr olduqca perspektivli startap və maraqlı ideyalardan ibarət idi. Həmin layihələr 2018-ci ilin yay aylarında keçiriləcək növbəti ərizə qəbulu prosesində yenidən "AppLab" proqramına müraciət edə bilərlər.

"AppLab" proqramının fəaliyyətə başladığı 2014-cü ildən bəri müxtəlif avadanlıq və proqram təminatlarının tərtibi ilə məşğul olan yerli developerlər öz ideyalarını həyata keçirmək üçün "Bakcell"dən dəstək alırlar. Şirkət isə öz növbəsində daha çox maraqlı startapların, proqram tərtibatçılarının və qrupların üzə çıxarılmasına, onların istedadlarını nümayiş etdirməsinə, ideyalarını reallaşdırmasına və bunun üçün maliyyə və investisiya mənbələri tapmalarına kömək etməyə çalışır. "AppLab" Mərkəzinin dəstəyi ilə Azərbaycanın gənc mütəxəssisləri tərəfindən yaradılmış layihələrin bəziləri artıq Android və iOS əməliyyat sistemi ilə işləyən cihazlara yüklənə bilər.

Bakcell şirkətinin fəaliyyətinin əsas məqsədlərindən biri də yerli gənc istedadların öz startap layihələrini həyata keçirə bilməsinə kömək etmək və beləliklə də Azərbaycan gənclərinin parlaq gələcəyinə öz töhfəsini verməkdir.

# Bu il "Caspian Oil and Gas" sərgisinin 25 illik yubileyi olacaq

"Iteca Caspian" şirkətindən bildirilib ki, cari ilin aprel ayında şirkət tərəfindən Azərbaycanda təşkil olunan beynəlxalq sərgilər mövsümü öz işinə başlayır. İl ərzində 16 sərgi və bir konfransın keçirilməsi planlaşdırılıb. Bu ilin əhəmiyyətli hadisəsi isə Azərbaycanda təşkil olunan ilk ixtisaslaşdırılmış sərgi və konfrans - Xəzər Neft və Qaz "Caspian Oil and Gas" sərgisinin 25 illik yubileyi olacaq. Sərgilər dövlət sənaye strukturlarının dəstəyi ilə Bakı Ekspo Mərkəzində keçiriləcək.




Tədbirin beynəlxalq statusu Ümumdünya Sərgi Sənayesi Assosiasiyasına üzvlük ilə tamamlanır və burada sərgilər elan olunan statistik məlumatlar və tələb olunan təşkilati səviyyəyə uyğunluq baxımından hər il kompleks yoxlamadan keçərək, keyfiyyət nişanı ilə təltif olunur. Əsas sənaye sərgiləri beynəlxalq təşkilatlar tərəfindən də dəstəklənir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**